# "İŞIQ" NƏŞRİYYATININ YARANMASI VƏ FƏALİYYƏTİ

**Leyla Abasova**

*BDU, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru*

1960-80-ci illər respublikamızın nəşriyyat sisteminin inkişafında mühüm yer tutur. Bu dövrdə kitab nəşrindəki disproporsiyaları aradan qaldırmaq məqsədi ilə ayrı-ayrı sahələr və kitab tipləri üzrə nəşriyyatlar təşkil edilirdi. Belə nəşriyyatlardan biri də "İşıq" nəşriyyatıdır.

"İşıq" nəşriyyatı yaranana qədər incəsənət və sənətşünaslığa dair ədəbiyyatı çap edən müstəqil nəşriyyat yox idi. Buna görə də incəsənət üzrə kitablar əsasən "Azərnəşr"də, müəyyən qədər "Elm" nəşriyyatında və "Azərtədrisnəşr"də ("Maarif" nəşriyyatında) çap edilirdi. Belə bir şəraitdə incəsənət sahəsinin çoxsaylı mütəxəssislərinin, ümumiyyətlə, oxucuların incəsənətə dair sorğu və tələbləri kifayət qədər ödənilmirdi. Çünki incəsənətin bütün sahələrinə dair kitablar çap edilmirdi.

Kitab nəşri işində bu məsələni müsbət həll etmək məqsədilə 1968-ci ildə respublikamızda daha bir yeni, ixtisaslaşmış, sahəvi nəşriyyat, yəni "İşıq" nəşriyyatı yaradıldı. Bu nəşriyyat incəsənətin, sənətşünaslığın müxtəlif sahələrinə, aktual mövzularına dair müxtəlif növlü və tipli ədəbiyyatı çapdan buraxmağa başladı. Nəşriyyatın çap məhsulu içərisində əsas yeri kitab, kitabça, monoqrafiya, albom, buklet, plakat, not-musiqi ədəbiyyatı və s. tuturdu. Nəşriyyat incəsənət sahəsi üzrə çap edilən kitabları oxucu qruplarının sorğu və tələbatlarını daha yaxşı təmin etmək məqsədilə bir sıra redaksiyalar təşkil etməyi zəruri saydı. Buna görə də nəşriyyat fəaliyyətə başladığı ilk dövrlərdən burada bədii ədəbiyyat, elmi-kütləvi ədəbiyyat və incəsənət ədəbiyyatı redaksiyaları təşkil edildi.

1968-ci ildə Zaqafqaziya respublikaları arasında kitabların bədii tərtibatını yaxşılaşdırmaq sahəsində müsabiqə keçirilmişdi. Azərbaycan Jurnalistlər İttifaqı isə Respublika müsabiqəsi elan etmişdi. Bütün bunlar respublikamızda kitab nəşri işi ilə məşğul olan nəşriyyatların fəaliyyətində, xüsusilə kitabların bədii tərtibatında irəliyə doğru dönüşün yaranmasında müsbət rol oynadı. Beləliklə, bütün nəşriyyatlar, o cümlədən "İşıq" nəşriyyatında çap məhsulunun bədii cəhətdən keyfiyyətli, illüstrasiyalı, rəngli buraxılmasına xüsusi diqqət yetirildi.

"İşıq" nəşriyyatının bu cür fəaliyyəti öz ətrafına geniş oxucu auditoriyası toplamağa imkan yaratmışdır. Nəşriyyatda musiqi ədəbiyyatının nəşrini yaxşılaşdırmaq məqsədi ilə 1971-ci ilin axırında nəşriyyat not-musiqi





ədəbiyyatı redaksiyası yaradılmışdır. Burada bəstəkarlarımızın əsərlərinin nəşri işi həyata keçirilməyə başlamışdır.

Azərbaycan təsviri sənətinin mühüm qollarından sayılan kitab tərtibatı və illüstrasiyası işi getdikcə inkişaf edir və təkmilləşirdi. Kitab qrafikası ilə məşğul olan rəssam müasir tərtibat işinin son nailiyyətlərindən xəbərdar olmalı, poliqrafiyanı, foto sənətindəki yenilikləri və başqa xarakterik xüsusiyyətlərin incəliyini bilməli, fotoqrafla, müəlliflə birgə işləməyi bacarmalıdır.

1980-ci illərdə respublikamızda kitab tərtibatını və poliqrafik icra işini yaxşılaşdırmaq məqsədilə seminar və müşavirələr keçirilir, sərgilər təşkil olunurdu.